# O, elə yaşadı ki...



*Müşfiq yox,*
*Mikayıl yox,*
*Faruq yox,*
*Səməd yox,*
*Əli Nazim yox,*
*Mehdi yoxdu.*
*Tək necə qayıdım o günlərə,*
*Necə keçim o yolu?*

Belə yazırdı ustad sənətkar, Xalq şairi Rəsul Rza ömrünün qürub çağında... İndi Müşfiqli, Mikayıllı, Faruqlu, Səmədli, Əli Nazimli, Mehdili dünyasındadı. Hər dəfə anıldıqca, xatırlandıqca o unudulmaz könül dostları, qələmdaşları ilə bir arada dönür, qayıdır, yenidən keçir o yolu. Ölümün birtərəfli gedişi birtərəfli səki olduğunu bilsə də, yazsa da!.. Bu könül dostlarını, qələmdaşlarını xatırlaya-xatırlaya əvvəlin sonunu (və ya tərsinə) belə anladırdı:



*Günlər var çeşid-çeşid;*
*İnciklisi bu yanda,*
*Fərəhlisi o yanda.*
*Belə olurmuş demək*
*Ömrün-günün sonunda.*

Bilirdi belə olduğunu, olacağını. Ona görə də insanlığın ömür, yaşam kredosunu anlatmağa tələsir, durub-dayanmadan cəhd edirdi:

*Vaxt var ikən*
*elə yaşa, elə çalış*
*bir gün sən olmayanda*
*hər kəsə aydın görünsün*
*yerində qalan boşluq.*

Belə yazdı, yazdığı kimi də yaşadı, mübarizələrin önündə getdi. Mayın 19-da, doğum günündə unudulmaz sənətkarın Fəxri xiyabandakı məzarını ziyarət edən doğmaları, qələmdaşları da elə onun sənət dünyamızda əbədi olan, hər an görünən və gələcək zamanlarda da görünəcək mötəbər yerindən söz açdılar.

Tədbiri AYB sədrinin müavini Rəşad Məcid açdı. Yazıçı Səyyad Aran, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, şair Yusif Nəğməkar, ədəbiyyatşünas alim Gülhani Pənah da öz növbələrində ustad sənətkarın yaradıcılıq məziyyətlərindən söz açdılar, xatirələrini bölüşdülər.

Sonda Xalq yazıçısı Anar ailələri adından tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

**Sərvaz**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 21 may.- S. 11.**